# Azərbaycan Respublikasının

# Auditorlar Palatası

## “Təsərrüfat subyektlərinin audit komitələri ilə auditin mövcud problemlərinə dair” keçirilmiş sorğuya dair

## H E S A B A T

**İyul, 2025-ci il**

**“Təsərrüfat subyektlərinin audit komitələri ilə auditin mövcud problemlərinə dair” keçirilmiş sorğuya dair Hesabat**

Sorğu 2025-ci il 24 iyun – 4 avqust tarixlərində keçirilmiş, ümumilikdə 161 baxış olmuş və 30 respondent sorğunu cavablandırmışdır. Qeyd edilməlidir ki, sorğu 80 respondent olmaqla, Elektron Sənəd Dövriyyəsi və Dövlət Vergi Xidmətinin elektron kargüzarlıq sistemi vasitəsilə müraciət olunmaqla aparılmışdır.

Respondentlər ölkəmizdə fəaliyyət göstərən maliyyə institutları və iri sahibkarlıq subyektlərindən ibarətdir.

Sorğuda respondentlərin yalnız 37.5%-i iştirak etmişdir. İştirak edənlərin böyük əksəriyyəti (təxminən 22%-i) bank və sığorta təşkilatlarından olması cavablandırılmış suallardan aydındır. Sorğunu cavablandırmayan respondentlərin böyük əksəriyyəti holdinq və digər iri sahibkarlıq subyektlərinin olması ehtimal edilir və bu verilmiş sualların cavablandırılmasından da özünü göstərir.

Sorğuda passiv iştirakın səbəbini aşağıdakılarla izah etmək mümkündür:

1. Audit komitələri barəsində məlumatların az olması;
2. Qanunvericiliklə Audit Komitələri yaradılmalı olan subyektlər tərəfindən bu işə passiv münasibət;
3. Orta və iri sahibkarlıq subyektləri tərəfindəndən Audit Komitələrinə etimadın və gözləntilərin aşağı səviyyədə olması.

Qeyd: Yuxarıda qeyd edildiyi kimi sorğuya dair müraciətin ESD və AVİS sistemləri vasitəsilə təqdim edilməsi, sorğu materiallarının respondentlərinə çatmaması amilini istisna edir.

**Sorğunun suallarının cavablandırılması aşağıdakı kimi olmuşdur:**

**1. Sizin fəaliyyətiniz:**

Respondentlərin 33.3%-i Audit Komitəsinin üzvü, 23.3%-i daxili auditor olduqlarını göstərmişlər.

**2. Təşkilatınızın fəaliyyəti:**

Respondentlərin mütləq əksəriyyəti yəni 70%-i özəl sektor nümayəndələridir.

**3. Audit Komitəsinin mövcudluğundan xəbərdarsınızmı?**

Respondentlərin 93.3%-i müsbət cavab vermişdir.

**4. Təşkilatınızda Audit Komitəsi fəaliyyət göstərirmi?**

Respondentlərin 76.7%-i müsbət, 23.3%-i isə mənfi cavab vermişdirlər.

**5. Audit Komitəsinin əsas funksiyasını bilirsinizmi?**

Respondentlərin 100%-i müsbət cavab vermişdir.

**6. Audit Komitəsi təşkilatda şəffaflığın təmin olunmasına kömək edir?**

Respondentlərin 96.7%-i Audit Komitəsi təşkilatda şəffaflığın təmin olunmasına kömək göstərdiyini bildirmişdir.

**7. Audit Komitəsinin müstəqilliyini necə qiymətləndirirsiniz?**

Respondentlərin 86.7%-i Audit Komitəsinin müstəqilliyinə müsbət cavab vermişdir.

**8. Audit Komitəsi mütəmadi hesabat verir?**

Respondentlərin 86.7%-i Audit Komitəsinin mütəmadi hesabat verməsinə müsbət cavab vermişdir.

**9. Audit Komitəsinin qərarları sizcə açıq və başa düşüləndirmi?**

Respondentlərin 86.7%-i Audit Komitəsinin qərarlarının açıq və başa düşülən olmasına müsbət cavab vermişdir.

**10. Audit Komitəsi kənar auditorun seçimində aktiv rol oynayırmı?**

Audit Komitəsinin kənar auditor seçimində aktiv rol oynaması böyük əksəriyyətlə bildirilmiş, 1 respondent isə kənar auditor seçimini "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikasının qanununa əsasən müəyyən edildiyini göstərmişdir.

**11. Auditorların namizədliyi ilə bağlı tövsiyələr verir və onların müstəqilliyini qiymətləndirirmi?**

Sual əsasən müsbət cavablandırılmışdır.

**12. Auditorun təyinatı, dəyişdirilməsi və ya müqaviləsinin uzadılması ilə bağlı qərarverici orqana rəy verirmi?**

Sual əsasən müsbət cavablandırılmışdır.

13. Kənar auditor ilə ilkin görüşlər keçirərək audit planını müzakirə edirmi?

Sual əsasən müsbət cavablandırılsa da, 4 reypondent "xeyr" cavabı vermişdir.

14. Riskəsaslı yanaşmalar, diqqət yetiriləcək sahələr və prosedurlar barədə qarşılıqlı fikir mübadiləsi aparılırmı?

Sual əsasən müsbət cavablandırılmışdır.

15. Audit komitəsi audit planının təşkilat üçün uyğunluğunu qiymətləndirirmi?

- Sual əsasən müsbət cavablandırılmışdır. Amma 1 halda qeyd edilmişdir ki,

" ***Rəsmi olaraq belə bir qiymətləndirmə aparılmır, lakin audit planında hər hansı uyğunsuzluq gördüyü zaman bu barədə dərhal kənar auditə məlumat verilir və müvafiq müzakirələr aparılır".***

16. Audit komitəsi kənar auditor tərəfindən hazırlanmış audit hesabatlarını nəzərdən keçirirmi?

Sual əsasən müsbət cavablandırılmışdır.

17. Aşkarlanan əsas məsələlərin səbəbləri, tövsiyələr və cavab tədbirləri müzakirə olunurmu?

Sual əsasən müsbət cavablandırılmışdır.

18. Əhəmiyyətli uyğunsuzluq və ya daxili nəzarət boşluqları ilə bağlı addımlar planlaşdırılırmı?

Sual əsasən müsbət cavablandırılmışdır.

19. Audit Komitəsi kənar auditorun müstəqilliyini və objektivliyini qorumağa cavablıdırmı?

Sual əsasən müsbət cavablandırılmışdır. 4 reypondent "xeyr" cavabı vermişdir.

20. Auditorlarla münasibətlərdə maraq toqquşması və ya aslılıq hallarını izləyirmi?

Sual əsasən müsbət cavablandırılmışdır. 2 reypondent "xeyr" cavabı vermişdir.

21. Auditorun təşkilatdan qeyri audit xidmətləri alıb- almamasını nəzarətdə saxlayırmı?

Sual əsasən müsbət cavablandırılmışdır. 1 reypondent "xeyr" cavabı vermişdir.

22. Audit komitəsi daxili auditlə xarici kənar audit arasında koordinasiyanın qurulmasını təşviq edirmi?

Sual əsasən müsbət cavablandırılmışdır. 1 reypondent "xeyr" cavabı vermişdir.

23. Kənar auditorun daxili audit məlumatlarından istifadə etməsinə şərait yaradırmı?

Sual əsasən müsbət cavablandırılmışdır. 1 reypondent "xeyr" cavabı vermişdir.

24. Sizcə, Audit Komitəsinin fəaliyyəti hansı sahələrdə təkmilləşdirilməlidir?

| | | |
|---|---|---|
| o Hesabatlılıq | 14 | 46.7% |
| o Müstəqillik | 8 | 26.7% |
| o Şəffaflıq | 4 | 13.3% |
| o Kommunikasiya | 12 | 40.0% |
| o Digər | 9 | 30.0% |

(1-dən çox cavab seçilə bilər)

**25. Audit Komitəsinin fəaliyyətində iştirak etmək istərdinizmi?**

| | | |
|---|---|---|
| o Bəli | 26 | 86.7% |
| o Xeyr | 1 | 3.3% |
| o Əmin deyiləm | 3 | 10.0% |

26. Təşkilatınızda korporativ idarəetmə prinsiplərinə riayət olunmasının nə dərəcədə əminsiniz?

| | | |
|---|---|---|
| o Tam şəkildə riayət olunur | 23 | 76.7% |
| o Qismən riayət olunur | 6 | 20.0% |
| o Ümumiyyətlə riayət olunmur | 1 | 3.3% |
| o Fikrim yoxdur | 0 | 0.0% |

27. Təşkilatınızda korporativ idarəetmə prinsiplərinə riayət olunmasına nə dərəcədə əminsiniz?

| | | |
|---|---|---|
| o Tam şəkildə riayət olunur | 23 | 76.7% |
| o Qismən riayət olunur | 5 | 16.7% |
| o Ümumiyyətlə riayət olunmur | 1 | 3.3% |
| o Fikrim yoxdur | 1 | 3.3% |

28. Təşkilatınızda şəffaflıq prinsipləri necə təmin olunur?

| | | |
|---|---|---|
| ★☆☆☆☆ 1/5 | 0 | 0.0% |
| ★★☆☆☆ 2/5 | 1 | 3.3% |
| ★★★☆☆ 3/5 | 1 | 3.3% |

| | | |
|---|---|---|
| ★★★★☆ 4/5 | 6 | 20.0% |
| ★★★★★ 5/5 | 22 | 73.3% |

29. Təşkilatda şəffaflıq prinsiplərinə dair təkliflərinizi qeyd edin

**Təhlil və nəticə**

Verilmiş cavablardan belə bir nəticə çıxarmaq olar ki, sorğu mütləq əksəriyyətlə maliyyə institutları tərəfindən cavablandırılmışdır.

Respondentlərin əksəriyyəti Audit Komitəsinin üzvü, daxili auditor və maliyyə sahəsi üzrə mütəxəssislər olmuşdur. Həmin şəxslər tərəfindən Audit Komitəsinin funksiyaları, təşkilatda şəffaflığın təmin olunmasının rolu, habelə təşkilatlarda mövcud olan Audit Komitəsinin müstəqilliyi müsbət qiymətləndirilmişdir.

Eyni zamanda, Audit Komitələrinin hesabatlılığı, qərarlarının əlçatanlılığı, kənar auditorun seçimində iştirakı, habelə digər prosedurlar yetərincə açıqlanmışdır.

Bununla belə, bir sıra hallarda (məsələn, kənar auditin seçilməsi, audit planının müzakirəsi, komitə tərəfindən kənar auditorun müstəqilliyinin qorunması, maraqlar toqquşması ilə bağlı məqamlar, kənar və daxili auditorların fəaliyyətinin koordinasiyası) Audit Komitəsinin passiv rolu da qeyd olunmuşdur.

Sorğu korporativ idarəetmə prinsiplərinə riayət etmə sahəsində də neqativ halların olmasını aşkar edir. Bütövlükdə korporativ idarəetmə üzrə müsbət cavablar 76%-dən yuxarı təşkil etsə də, mənfi cavablar da nəzərə çarpacaq dərəcədədir (23%). Bu hal şəffaflıq prinsiplərinə əməl etmədə də özünü göstərir. Kənar auditorlara etimad nöqteyi-nəzərindən də etibarlılıq faizi 70%-dən yüksək olsa da, "qismən etibar edirəm" sualına da əhəmiyyətli dərəcədə  (26.7%) cavab verilmişdir. “Auditin nəticəsi təşkilatda real dəyişikliklərə səbəb olurmu” sualı respondentlər tərəfindən 63% müsbət qiymətləndirilmiş, 10% cavab isə “çox nadir hallarda” göstərilmişdir.

Audit sistemində rast gəlinən çatışmazlıqlar respondentlər tərəfindən aşağıdakı kimi vurğulanmışdır:

1. Auditorların hüquqi və maliyyə məsuliyyətinin zəif olması;
2. Risklərin vaxtında identifikasiya edilməməsi və proaktiv yanaşmanın olmaması;
3. Audit proseslərində süni intellekt (Aİ), böyük məlumat analitikası (Big Data) və avtomatlaşdırılmış alətlərdən tam istifadə edilməməsi;
4. Kibertəhlükəsizlik risklərinin nəzərə alınmaması və rəqəmsal auditoriyanın zəif inkişafı;
5. Bir sıra hallarda auditin müddətinin lüzumsuz uzadılması;
6. Auditorların müasir risklər ( məsələn, İT riskləri, rəqəmsal dələduzluq) üzrə zəif biliyə malik olması.

Respondentlər eyni zamanda daxili auditor kadrlarının çatışmazlığını, auditorların məlumatlara tam əlçatanlığının olmaması, habelə beynəlxalq sertifikatlaşdırmanın zəif olmasının xüsusi vurğulamışlar

**Təklif və tövsiyələr**

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 21 yanvar 2025-ci il tarixli 10-1/3-3-3/2025 N-li sərəncamı ilə təsdiq edilmiş Qrafikə uyğun olaraq “Auditorlar Palatası tərəfindən 2025-ci il ərzində sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması barədə Sərəncamının “Təsərrüfat subyektlərinin audit komitələri ilə auditin

mövcud problemlərinə dair" sorğular keçirilməsi bəndinə müvafiq olaraq, 2025-ci ilin iyul-avqust aylarında keçirilmiş sorğunun nəticələri üzrə aşağıdakı təklif və tövsiyələr hazırlanmışdır:

1. Audit Komitələrinin nümunəvi Əsasnaməsinin təkmilləşdirilməsi;
2. Audit Komitələri, onların funksiyaları, öhdəlikləri, fəaliyyət sahələri barədə sahibkarların, maliyyə-mühasibat üzrə peşə sahiblərinin, səhmdar və potensial investorların, bütövlükdə ictimaiyyətin məlumatlandırılması istiqamətində tədbirlərin intensivləşdirilməsi;
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin "Maddə 91-4. Məhdud məsuliyyətli cəmiyyətin audit komitəsi" və "Maddə 107-12. Səhmdar cəmiyyətinin audit komitəsi" maddələrinin Audit komitələrinin yaradılması ilə bağlı tələblərinin yerinə yetirilməsi ilə bağlı müvafiq mərkəzi icra hakimiyyəti orqanlarına müraciət edilməsi;
4. Audit Komitələrinin hesabatlarının vahid formasınn tətbiqi və hesabatlılığının təkmilləşdirilməsi;
5. Audit Komitəsinin fəaliyyətində kommunikasiya sisteminin, kənar və daxili audit ilə digər struktur vahidləri arasında əlaqələrin təşkili və təkmilləşdirilməsi;
6. Audit Komitəsinin fəaliyyətində iştirakın maddi və mənəvi stimullaşdırılması;
7. Audit Komitəsinin fəaliyyətində etik aspektlərə (maraq toqquşmasına, müstəqilliyin qorunmasına və s.) diqqətin artırılması;
8. Audit Komitəsinin kənar auditorlarla qarşılıqlı münasibətləri çərçivəsində:
   - ✓ Auditorların hüquqi və maliyyə məsuliyyətinin qanunvericiliklə müəyyən edilən səviyyədə gücləndirilməsi;
   - ✓ Auditorlar tərəfindən Risklərin vaxtında identifikasiya edilməsi və proaktiv yanaşmanın təmin olunması;
   - ✓ Audit proseslərində süni intellekt (Aİ), böyük məlumat analitikası (Big Data) və avtomatlaşdırılmış alətlərdən istifadə edilməsi istiqamətindı tədbirlərin görülməsi;
   - ✓ Auditorlar üçün İT riskləri, rəqəmsal dələduzluq və digər müasir risklər üzrə peşə təlimlərinin təşkili;
   - ✓ Auditorların məlumatlara tam əlçatanlığının təmin edilməsi.
9. Audit Komitəsi və daxili audit qurumları ilə qarşılıqlı münasibətləri çərçivəsində:
   - ✓ Təsərrüfat subyektlərində daxili audit strukturlarının "Daxili audit haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq qaydada təşkili və fəaliyyəti ilə bağlı tədbirlərin həyata keçirilməsi;
   - ✓ Fəliyyət sahəsindən asılı olaraq subyektlərdə funksional və əməliyyat üzrə daxili auditin təşkili;
   - ✓ Daxili audit kadrlarının hazırlanması və davamlı peşə təhsili üzrə tədbirlərin intensivləşdirilməsi.

**Sədrin elmi-metodik**
**məsələlər üzrə müşaviri** **Nəcəf Talıbov**